<table>
<tr><td rowspan="10">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td colspan="2">VET458, Parazitologiya və invazion xəstəliklər, 4 AKTS</td></tr>
<tr><td>Departament</td><td colspan="2">Baytarlıq təbabəti</td></tr>
<tr><td>Proqram</td><td colspan="2">Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td colspan="2">2025/2026-cı tədris ilinin yaz semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim</td><td colspan="2">b.ü.f.d., dosent Simuzər Mamedova</td></tr>
<tr><td>E-mail</td><td colspan="2">mamedovasima28@gmail.com</td></tr>
<tr><td>Telefon</td><td colspan="2"></td></tr>
<tr><td>Ünvan, dərs otağı, dərs cədvəli</td><td colspan="2">Bakıxanov qəsəbəsi, Elşən Mehdiyev 478. Otaq 102. Çərşənbə axşamı 13:40-15:10; 15:20 – 16:50</td></tr>
<tr><td>Məsləhət saatı</td><td colspan="2">Tələbələrlə razılaşma nəticəsində təyin ediləcəkdir</td></tr>
<tr><td colspan="3"></td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="3">VET 458</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="3">Azərbaycan dili</td></tr>
<tr><td>Fənnin növü</td><td colspan="3">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və əlavəədəbiyyat</td><td colspan="3">Əsas dərsliklər:<br>1. Bilalov R. Parazitologiya və heyvanların invazion xəstəlikləri. Lənkəran, LDU, 2021, 375 səh.<br>2. Паразитология и инвазионные болезни животных: метод. указания по выполнению лабораторных работ для специальности 36.05.01 Ветеринария / Сост.: Д.М. Коротова, Л.М. Кашковская// ФГБОУ ВО «Саратовский ГАУ». – Саратов, 2017. – 242 с.<br>Əlavə vəsaitlər:<br>3. Новак, М.Д. Паразитарные болезни животных: учебное пособие / М.Д. Новак, С.В. Енгашев. –М.: РИОР, ИНФРА-М, 2013. – 192 с.<br>4. Акбаев, М.Ш. Паразитология и инвазионные болезни животных: учебник для высших учебных заведений / М. Ш. Акбаев, А.А. Водянов, Н.Е. Косминков. - М.: Колос, 2000. – 743 с.<br>Köməkçi –WEB mənbələr<br>1. Российское паразитологическое общество при РАН, Новосибирское отделение: офиц. сайт. – Режим доступа: WWW. URL: http://www.parasitology.ru<br>2. https://www.activestudy.info/oksiuroz-loshadej/</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td colspan="2">Məşğələ</td><td>X</td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td>X</td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar</td><td>X</td></tr>
<tr><td colspan="2">Praktiki məsələnin təhlili</td><td>X</td></tr>
<tr><td rowspan="2">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Quiz</td><td>Semestr ərzində 2 dəfə Aralıq və Final imtahanlarından əvvəl</td><td>10</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | **Fərdi mövzuda prezentasiya** | Semestr ərzində | **10** |
| | **Davamiyyət** | Semestr ərzində | **5** |
| | **Fəallıq** | | **5** |
| | **Aralıq imtahanı** | | **30** |
| | **Final imtahanı** | | **40** |
| | **Yekun** | | **100** |
| **Kursun təsviri** | Ümumi parazitologiya bioloji təhsil sistemində xüsusi fənlərdən biridir. "Parazitologiya və invazion xəstəliklər" kursunun proqramı geniş bioloji dairə ilə yaradıcı düşünən, yüksək ixtisaslı mütəxəssisin hazırlanmasına yönəlmiş çoxsəviyyəli təhsil sistemi nəzərə alınmaqla tərtib edilmişdir. "Parazitologiya və invazion xəstəliklər" kursu tələbəni yalnız parazitlərin morfologiyası və biologiyasının xüsusiyyətlərini bilməklə təmin etmir, həm də bütövlükdə canlı sistemlərin fəaliyyət qanunauyğunluqlarının başa düşülməsinə kömək edir. Parazitologiya elmi epidemiologiya və epizootologiya ilə sıx əlaqədə olub, bir sıra invazion və infeksion xəstəliklərin baş verməsinin ümumi qanunauyğunluqlarını öyrənir.<br>Bu kursun öyrənilməsi zamanı parazitizm və parazitlik anlayışları əsaslandırılır, parazit və sahibin formalar və onlar arasındakı əlaqələr, parazitin heyvanlar aləmində mənşəyi və yayılması, parazitlərin həyat dövrləri, parazitofaunanın sahibin həyat tərzindən və qidalanmasından asılılığı, parazitlərin yayılmasının coğrafi və antropoloji amillərdən asılı olaraq dəyişilməsi nəzərdən keçirilir.<br>Bundan başqa, kurs onurğasızlar, ümumi biologiya, ekologiya, zoologiya kimi bioloji kursların öyrənilməsi prosesində əldə edilən bilikləri dərinləşdirməyə və sistemləşdirməyə imkan verir. | | |
| **Kursun məqsədi** | Parazitologiya və invazion xəstəliklər kursu baytarlıq ixtisasların tələbələrini parazitologiyanın əsas problemləri və istiqamətləri ilə tanış edir ki, bu da eyni zamanda tibbi və baytarlıq parazitologiyası, eləcə də ekologiya sahəsində məsələlərin həlli üçün nəzəri əsasdır.<br>Kursun məqsədi tələbələri parazitizm fenomeni, parazitlərin müxtəlif təsnifatları, parazitologiyanın əsas vəzifələri və problemləri ilə tanış etmək. Tələbələri ən mühüm və geniş yayılmış parazitar xəstəliklərlə tanış etməkdən, parazitar xəstəliklərin qarşısının alınmasının əsaslarını izah etməkdən ibarətdir.<br>Müasir mərhələdə parazitologiyanın vəzifəsi baytarları elə biliklərlə təchiz etməkdən ibarətdir ki, onların praktikaya tətbiqi kənd təsərrüfatı heyvanlarının bütün növləri arasında ən təhlükəli parazitar xəstəliklərin yaranmasının və yayılmasının qarşısını etibarlı şəkildə alacaqdır. Eyni zamanda parazitologiyanın ikinci xüsusilə mühüm vəzifəsi ət və ət məhsulları vasitəsilə insanlara keçən parazitar xəstəliklərdən əhalinin sağlamlığının qorunmasıdır. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Kursun sonunda tələbələr nəyi biləcəklər:**<br>- Ekoloji və təkamül hadisəsi kimi parazitizm haqqında təsəvvürlərin formalaşması; | | |

| | |
|---|---|
| | - Parazit həyat tərzinə uyğunlaşmaları və parazitlərin həyat dövrlərini öyrənmək;<br>- Orqanizm, populyasiya və biosenotik səviyyədə sahib-parazit sisteminin struktur təşkili;<br>- Parazitlərin morfologiyası və bioloji xüsusiyyətləri;<br>- Parazitizm və parazitlərin təsnifatı;<br>- Parazitlərin inkişaf dövrləri, invaziya növləri;<br>- Əsas parazitar xəstəliklərin yayılması qanunauyğunluqları;<br>- Parazitar xəstəliklərin qarşısının alınması üsulları;<br>- Parazitlərə qarşı mübarizə tədbirləri;<br>- Parazitlərin tibbi və baytarlıq əhəmiyyəti;<br>- Ekoloji hadisə kimi parazitizm anlayışı;<br>- Parazit heyvanların müxtəlif növləri və onların təbiətdə və insan həyatında əhəmiyyəti mövzusunda əldə edilmiş biliklərin peşə fəaliyyətində tətbiqi; |
| **Qaydalar (tədris siyasəti və davranış)** | **Dərsin təşkili**<br>- Fənnə aid ümumi xarakterli məlumatlar dərs zamanı tələbələrə çatdırılacaqdır.<br>- Yeni mövzu əyani vasitələrin (PPT və video fayllar) nümayişi ilə izah ediləcəkdir.<br>- Aralıq və final imtahanları öncəsi tələbələrin mənimsəmə səviyyələri (Quiz) yoxlanılacaqdır.<br>- Tələbələrin əvvəlki mövzunu mənimsəmələri şifahi və yazılı sorğunun keçirilməsi ilə hər dərs qiymətləndiriləcəkdir, semestrin sonunda isə ortaq qiymət çıxarılacaqdır (Fəallıq).<br>- Semestr ərzində fərdi mövzuda prezentasiyaların verilməsi vacibdir. Prezentasiya vaxtı, sonunda müzakirə də daxil olmaqla 15-dəqiqədən artıq olmamalıdır. Prezentasiyanın özü isə çap olunmuş variantda təhvil verilməlidir. Prezentasiya mövzuları və qaydaları haqda dərsdə daha geniş tanışlıq olunacaqdır.<br>- Semestr ərzində 9 fərdi laborator işi aparılması vacibdir. Laboratoriya dərsində ağ xalat geyilməlidir. Laborator işinin nəticələri dəftərdə protokollaşdırılmalıdır. Hər bir protokolda laborator işin adı, prinsipi, gedişi, alınan nəticələr və müzakirə bölmələri yazılmalı və müəllim tərəfindən yoxlanılmalı, şifahi sorğu aparılaraq qiymətləndirilmədir. Semestrin sonunda ortaq qiymət çıxarılır. Bu qaydalarla dərsdə daha geniş tanışlıq olunacaqdır.<br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>**Dərsə gecikmələr və ya digər dərs pozuntuları**<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qaib yazılır. Buna baxmayaraq, |

| | |
|---|---|
| | tələbə dərs saatına buraxılır.<br>**Yoxlama işi (Quiz)**<br>Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br>**İmtahanlar**<br>Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.<br>Aralıq və yekun imtahanı mövzuları tələbələrə imtahandan öncə verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır.<br>**İmtahan qaydalarının pozuntuları**<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürülmələr qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.<br>**Fənni bitirmək qaydası**<br>Universitənin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və  ya növbəti il təkrarən götürə bilər.<br>**Tələbələrin davranış qaydaları**<br>**Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq, həmçinin tələbələr  arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır.** |

## MÖVZULAR ÜZRƏ SAATLARIN TƏXMİNİ BÖLGÜSÜ VƏ TƏQVİM-TEMATİK PLAN

| Həftə | Tarix | Mövzu | Dərsliklər/ Tapşırıqlar |
|---|---|---|---|
| I | 17.02.2026 | **Mövzu № 1.** Nematodlar və nematodozlar. Spirurida dəstəsinə mənsub olan nematodların törətdikləri xəstəliklər. | Dərslik 1, s. 160-171 |
| II | 24.02.2026 | **Mövzu № 2.** Nematodlar və nematodozlar. Enoplida dəstəsinə mənsub olan nematodların törətdikləri xəstəliklər | Dərslik 1, s. 172-177 |
| | | Spirurida və Enoplida dəstəsinə mənsub olan nematodların törətdikləri xəstəliklərin müqayisəli xarakteristikası mövzusunun müzakirəsi və tələbələrin mövzuların mənimsəmələrinin qiymətləndirilməsi. | |
| III | 03.03.2026 | **Mövzu № 3.** Nematodlar və nematodozlar. Rabditida dəstəsinə mənsub olan nematodların törətdikləri xəstəliklər – rabdidatozlar. Akantosefalyozlar. | Dərslik 1, s. 178-182 |
| | 10.03.2026 | **Mövzu № 4.** Baytarlıq protozoologyası. İbtidailərin sistematikası, morfologiyası və biolgiyası Protozooz xəstəlikləri haqqında. | Dərslik 1, s. 182-189<br>Dərslik 2, s.8-9 |

| | | | |
|---|---|---|---|
| IV | | Şifahi sorğu keçirməklə mövzunun müzakirəsi və tələbələrin mövzuları mənimsəmələrinin qiymətləndirilməsi. | |
| V | 17.03.2026 | **Mövzu № 5.** Koksidiozların etiologiyası, törədicinin morfologiyası, biologiyası, diaqnozu və mübarizə tədbirləri: Eimeriozlar və Kriptosporidiozlar | Dərslik 1, s. 213-223 |
| VI | 24.03.2026 | **Mövzu № 6**. Koksidiozların etiologiyası, törədicinin morfologiyası, biologiyası, diaqnozu və mübarizə tədbirləri:Toksoplazmoz, Sarkosistoz, Besnotioz. | Dərslik 1, s. 223-233 |
| | | **Quiz 1.** | |
| VII | 31.03.2026 | **Mövzu № 7.** Piroplazmidozlar. Piroplazmoz törədicinin morfologiyası, biologiyası, diaqnozu və mübarizə tədbirləri. | Dərslik 1, s. 90-97, 189-199 |
| VIII | 07.04.2026 | **Mövzu № 8.** Piroplazmidozlar: Babezioz, Teylerioz, Fransaiellyoz, Anaplazmoz və Nuttalioz xəstəliklərinin etiologiyası, törədicinin morfologiyası, biologiyasi, diaqnozu və mübarizə tədbirləri. | Dərslik 1, s.200-213 |
| | | **Aralıq imtahan** | |
| IX | 14.04.2026 | **Mövzu № 9**. Mastiqoforozlar: Tripanozomozlar: Surra xəstəliyi, Atlarda cütləşmə xəstəliyi, Trixomonoz, Leyşmaniyoz, Histomonoz | Dərslik 1, s. 233-245 |
| X | 21.04.2026 | **Mövzu №10.** Siliatozlar Donuzların Balantidiozu, Balıqların Xilodenellyozu, Trixodinozu, İxtiofitrioz və Kostiozu. | Dərslik 1, s. 245-251 |
| | | Şifahi sorğu keçirməklə Piroplazmidozlar etiologiyası, törədicilərinin morfologiyası, biologiyası, diaqnozu və mübarizə tədbirləri mövzusunun müzakirəsi və tələbələrin mövzunu mənimsəmələrinin qiymətləndirilməsi | Dərslik 2, s. 33-35 |
| XI | 28.04.2.26 | **Mövzu № 11**. Baytarlıq akaralogiyası: Gənələr haqqında anlayış. Gənələrə qarşı mübarizə tədbirləri | Dərslik 1, s. 258-271 |
| XII | 05.05.2026 | **Mövzu № 12.** Buğumayaqlıların törətdiyi xəstəliklər. Kənd təsərrüfatı heyvanlarının qoturluq xəstəlikləri. Qoturluq zamanı diaqnoz üsulları. | Dərslik 1, s. 271-276 |
| | | Şifahi sorğu keçirməklə Mastiqofozlar və Siliatozlar mövzularının müzakirəsi və tələbələrin mövzuları mənimsəmələrinin qiymətləndirilməsi | |
| XIII | 12.05.2026 | **Mövzu № 13.** Gənələrin törətdiyi xəstəliklər: Demodekoz, Xeyletioz, Knemidokoptoz, Sirinqofilyoz, Epidermoptoz, Varratoz, Akarapitoz | Dərslik 1, s.277-283 |
| XIV | 19.05.2026 | **Mövzu № 14**. Həşəratların təsnifati morfologiyası, biologiyası. Mozalanlar və onların törətdikləri xəstəliklər | Dərslik 1, s. 283-293 |
| | | **Quiz 2** | |

| | | | |
|---|---|---|---|
| **XV** | **26.05.2026** | **Mövzu № 15**. Qansoran qanadlı həşaratlar tərəfindən törədilən xəstəliklər. Qansoran həşəratlara qarşı mübarizə tədbirləri. | Dərslik 1, s. 294-313 |
| | | Şifahi sorğu keçirməklə Gənələrin və Mozalanların törətdiyi xəstəliklər mövzularının müzakirəsi və tələbələrin mövzuları mənimsəmələrinin qiymətləndirilməsi | |
| | | **YEKUN İMTAHAN** | |

***Bu tədris proqramı fənn haqqında tam məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcəkdir.***